Dekabr, 2025

# Tarix üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Testin hər bir tapşırığının təlimatı ilə diqqətlə tanış olun, hər bir tapşırığın tələbini yaxşı düşünün və sonra işə başlayın.

Testin maksimum xalı - 55

Testin üzərində işləmək üçün sizə 4 saat vaxt verilir

Sizə uğurlar arzulayırıq!

**1-22 №-li tapşırıqlar üçün təlimat.** Hər suala ehtimal olunan dörd cavab verilmişdir. Onlardan yalnız biri düzgündür. Sizin seçdiyiniz cavabı işarə etməyin yeganə yolu cavablar vərəqindəki müvafiq xanada X işarəsi qoymaqdır. Başqa heç bir qeyd (üfüqi, yaxud şaquli xətlər, dairəyə almaq və s. kimi qeydlər) elektron proqram tərəfindən qəbul edilmir. Əgər Siz cavab vərəqində işarə edilmiş cavabı düzəltmək istəyirsinizsə, X işarəsi qoyduğunuz xananı bütövlükdə rəngləyin, sonra cavabın yeni variantını işarə edin (yeni xanada X işarəsi qoyun). Düzəltdiyiniz cavabı təkrar seçmək qeyri-mümkündür. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) 1. Firon II Ramzes və Het çarı II Muvatalli  hansı döyüşdə rəqib ordularına rəhbərlik edirdilər?

ა) Maqneziya;

ბ) Kadeş;

გ) Qavqamel;

დ) Nizibin.

(1) **2. İllüstrasiyada təqdim olunan daş stel üzərində nə təsvir olunub?**



ა) On iki lövhə qanunu;

ბ) Hammurapi qanunları;

გ) On Əmr;

დ) Talmud.

(1) **3. Hansı Qədim Finikiya şəhəri <u>deyildi?</u>**

ა) Sur;

ბ) Cübeyl;

გ) Sidon;

დ) Nineviya.

(1) **4. Hansı Əhəməni şahı yunan şəhər-dövlətlərinə qarşı yürüş edib?**

ა) I Dara;

ბ) III Xosrov;

გ) IV Firuz;

დ) III Kir.

(1) **5. Likurq hansı şəhər-dövlətdə fəaliyyət göstərirdi?**

ა) Afinada;

ბ) Korinfdə;

გ) Spartada;

დ) Fivada.

(1) **6. Roma İmperiyasının mövcudluğunun birinci dövrü necə adlanırdı?**

ა) Dominat;

ბ) Tetrarxiya;

გ) Prinsipat;

დ) Dualizm.

(1) **7. Kartli erismtavarisi II Nersenin sarayında kim tərbiyə almışdı?**

ა) Qriqol Xandzteli;

ბ) İakob Xutsesi;

გ) Davit Qareceli;

დ) Evstati Msxeteli.

(1) **8. Hansı katolikin fəaliyyəti dövründə Svetitsxoveli kafedral kilsəsi tikilirdi?**

ა) I Arsenin;

ბ) I Abrahamın;

გ) I Evdemozun;

დ) I Melkisedekin.

(1) **9. Hansı Gürcüstan çarı Gəncə qapısını Gelatiyə verib?**

ა) III Baqrat;

ბ) I Qiorqi;

გ) IV Davit;

დ) I Demetre.

(1) **10. Hansı Qızıl Ordu xanı Teymur Lənglə mübarizə aparırdı?**

ა) Toxtamış;

ბ) Hülakü;

გ) Münke;

დ) Abaqa.

(1) 11. İllüstrasiya haqqında hansı məlumat doğrudur?



ა) Feodal Avropasında üç silk haqqında bərqərar olmuş nəzəriyyəni əks etdirir;

ბ) Roma papasının Səlib Yürüşü iştirakçılarına xeyir-duası təsvir edilib;

გ) Orta Əsrlərdə yayılmış Apokalipsis şəklini ifadə edir;

დ) Cəngavər və vassalların xeyir-dua mərasimini təsvir edir.

(1) **12. XIV əsrin birinci yarısında Gürcüstanda mövcud vəziyyət haqqında hansı məlumat doğrudur?**

ა) İkili çarlıq başladı və bu da bir əsr ərzində davam etdi;

ბ) Ölkə yüzillik monqol hökmranlığından azad oldu;

გ) Qızılbaş dövləti ilə uzunmüddətli qarşıdurma başa çatdı;

დ) Səlcuqları ölkədən qovmaq cəhdləri bərpa oldu.

(1) **13. 1444-cü ildə osmanlılarla avropalılar arasında gedən Varna döyüş hansı nəticə ilə başa çatdı?**

ა) Avropalıların qələbəsi ilə və osmanlıların Bolqarıstandan qovulması ilə;

ბ) Osmanlıların qələbəsi ilə və Macarıstan Krallığının fəth edilməsi ilə;

გ) Avropalıların qələbəsi ilə və Sultan I Bəyazidin əsir götürülməsi ilə;

დ) Osmanlıların qələbəsi ilə və Çar Vladislavın ölümü ilə.

(1) **14. Gürcüstanın Çar Sarayında mandaturtuxutsesin vəzifəsi nədən ibarət idi?**

ა) Maliyyələrə nəzarət;

ბ) dövlətdə nizam-intizamın qorunması;

გ) şəhərlərin idarəetməsi;

დ) Taxt varisinin tərbiyəsi.

(1) **15. Qızılgüllər müharibəsinin son nəticəsi haqqında hansı məlumat doğrudur?**

ა) İngiltərədə Tüdorlar sülaləsi hökm sürməyə başladılar;

ბ) Normandiyalı baronlar İngiltərə kralının aliliyini tanıdılar;

გ) İngiltərə kralı katolik kilsəsi ilə əlaqəni kəsdi;

დ) Şotlandiya İngiltərənin tərkibinə daxil oldu.

(1) **16. XVI əsrdə Osmanlı Yaxın Şərqdə nüfuz əldə etmək üçün hansı dövlətə qarşı durdu?**

ა) Fatimilər Misirinə;

ბ) Səfəvi İranına;

გ) Teymurilər İmperiyasına;

დ) Xarəzmşahlar dövlətinə.

(1) **17. II Luarsab haqqında hansı məlumat doğrudur?**

ა) Sultanın tələbinə tabe olmağa və taxta çıxmaq üçün xristianlıqdan imtina etməyə məcbur idi;

ბ) Əsirlikdə olanda islamı qəbul etməkdən imtina etdi və şahın əmri ilə öldürüldü;

გ) Üsyanı məğlub etdikdən sonra sultana baş çəkməyi  və bununla onun qəzəbini yumşaltmağı qərara aldı;

დ) Şahın vədinə inanmadı ki, onu ölümlə cəzalandırmayacaq və Mtiuletidə gizləndi.

(1) **18. Krım Xanlığının işğalı hansı Rusiya imperatorunun adı ilə bağlıdır?**

ა) I Pyotrun;

ბ) II Aleksandrın;

გ) I Nikolayın;

დ) II Ekaterinanın.

(1) **19. Rusiya-Gürcüstan münasibətləri haqqında hansı mülahizə doğrudur?**

ა) Georgiyevsk traktatı imzalandıqdan sonra rusların ordusu Kartli-Kaxetiyə daxil oldu, amma bir neçə ildən sonra Rusiya İmperiyası Georgiyevsk traktatını pozdu və Gürcüstandan ordusunu çıxardı;

ბ) I Pavelin Fərmanı ilə Rusiya ordusu İmeretiyə soxuldu və II Solomonu məcbur etdi ki, Rusiyanın himayəsini qəbul etsin, amma bir neçə ildən sonra I Pavel bu şərti də pozdu – İmereti Çarlığını ləğv etdi, II Solomonu isə Rusiyaya köçürdü;

გ) Krım müharibəsindən sonra Abxaziya knyazlığında yaranmış ağır iqtisadi vəziyyət kəndlilərin üsyanına səbəb oldu və Rusiya İmperatoru I Nikolay bundan istifadə edib Abxaziya knyazlığını ləğv etdi;

დ) Böyük Türk Müharibəsindən sonra Rusiya İmperiyası son olaraq Gürcüstandan imtina etdi, Rusiyanın müttəfiqi olan Kaxeti çarı isə çoxsaylı əyaləti ilə birlikdə Moskvaya sığındı.

(1) **20. 1878-ci il Berlin Müqaviləsi haqqında hansı məlumat *doğru deyil?***

ა) Artaan və Qars Rusiyaya verildi;

ბ) Batumi portofranko elan edildi;

გ) Rumıniya və Serbiyanın müstəqilliyi tanındı;

დ) Azov limanı və Krım yarımadası Osmanlıya verildi.

(1) **21. 1944-cü ildə Sovet komandanlığı tərəfindən Belarus ərazisində keçirilən hücum əməliyyatı necə adlanırdı?**

ა) Baqration;

ბ) Kutuzov;

გ) Suvorov;

დ) Xmelnitski.

(1) **22. SSRİ-nin birinci prezidenti kim olub?**

ა) Xruşşov;

ბ) Brejnev;

გ) Andropov;

დ) Qorbaçov.

**23-26 №-li tapşırıqlar üçün təlimat**

Tarixi hadisələri və şəxsiyyətləri xronoloji ardıcıllıqla düzün. Cavabları cavab vərəqində verilmiş xanalarda yazın. Nəzərə alın ki, xanada yalnız qeyd olunmuş hadisəyə və ya şəxsiyyətə uyğun olan rəqəm yazılmalıdır. Birinci xanada ən əvvəl baş vermiş hadisənin və ya şəxsiyyətin qeyd olunduğu rəqəm yazılmalıdır və s. Müvafiq olaraq, sonuncu – üçüncü xanada ən gec baş verən hadisənin və ya şəxsiyyətin qeyd olunduğu rəqəm yazılmalıdır. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **23. Ərəb Xilafətinin mövcud olduğu dövrdə baş verən hadisələri xronoloji ardıcıllıqla düzün.**

1. Ktesifonun alınması
2. Pireney yarımadasına soxulma
3. Bağdadın bünovrəsinin qoyulması

(1) **24. Yüzillik müharibə zamanı baş verən hadisələri xronoloji ardıcıllıqla düzün.**

1. Orlean mühasirəsinin qaldırılması
2. Janna d'Arkın burqundiyalılar tərəfindən əsir götürülməsi
3. Reymsdə VII Karlın tacqoyma mərasimi

(1) **25. Rusiya İmperiyası dövründə Qafqaza təyin olunan canişinləri, onların idarə etdikləri dövrə əsasən, xronoloji ardıcıllıqla düzün.**

1. Mixail Romanov
2. Mixail Vorontsov
3. Aleksandr Bariatinski

(1) **26. Tarixi əsərləri, onlarda verilən tarixi hadisələrin cərəyan etdiyi dövrə əsasən, xronoloji ardıcıllıqla düzün.**

1. Akaki Tseretelinin „Başi Açuki“ əsəri
2. Konstantine Qamsaxurdiyanın „Böyük ustadın sağ əli“ əsəri
3. Mixeil Cavaxişvilinin „Arsena Marabdeli“

**27 №-li tapşırıq üçün təlimat.**

Şagirdə xəritə verilib. O öz biliyindən və xəritədə olan məlumatdan istifadə edərək suallara cavab verməli idi.

Şagirdin cavablarından dördü (4) səhvdir.

Siz səhvlərin dördünü də tapmalı, onları cavablar vərəqinin müvafiq xanasına yazmalı və elə oradaca düzgün cavabı qeyd etməlisiniz. Tapşırıq maksimum 4 balla qiymətləndirilir.

**Tapşırıq 27. Xəritə və suallara növbəti səhifədə baxın**




Suallara növbəti səhifədə baxın

| Şagirdə verilən suallar: | Şagirdin cavabları: |
|---|---|
| 27.1. Xəritəyə əsasən, xəritədə qeyd edilən yürüşlər nəticəsində hansı şəhər iki dəfə alınıb? | 27.1. Roma |
| 27.2. Xəritədə hansı tayfanın yürüşləri qara rəngli oxlarla qeyd olunub? | 27.2. Vestqotlar |
| 27.3. Xəritəyə əsasən, Afrika qitəsində yerləşən şəhərin adını və vandallar tayfası tərəfindən onun alındığı tarixi adlandırın. | 27.3. Karfagen, 425-ci il |
| 27.4. Xəritəyə əsasən, yaşıl rənglə qeyd edilən dövlət 410-cu ildə hansı adanı tərk edib və bu adada yerləşən şəhəri adlandırın. | 27.4. Britaniya, Lutesiya |
| 27.5. Xəritəyə əsasən, qara rəngli oxlarla qeyd edilən tayfa xəritədə göstərilən dövrdə hansı dövlətlərin ərazisinə yürüş edib? | 27.5. Qərbi Roma İmperiyası, Pont Çarlığı. |

**28 №-li tapşırıq üçün təlimat**

İllüstrasiyada verilmiş məlumatı diqqətlə təhlil edin və suallara cavab verin. Nəzərə alın ki, hər iki illüstrasiya bir tarixi prosesin iki epizodunu əks etdirir. Cavabları cavab vərəqinin müvafiq yerinə yazın. Tapşırıq maksimum 7 balla qiymətləndirilir.

**Tapşırıq 28. İllustrasiyalara və suallara növbəti səhifələrdə baxın**



N1



N2

Hər iki illüstrasiya bir tarixi hadisə haqqındadır

**Suallara növbəti səhifədə baxın**

## Suallar:

(2) **28.1.** №1 illüstrasiyada hansı iki tərəfin qarşıdurmasının göstərildiyini adlandırın.

(2) **28.2.** №2 illüstrasiyada əks olunan tarixi faktı adlandırın. Cavabı illüstrasiyadakı məlumatla əsaslandırın.

(2) **28.3.** Tarixi hadisənin iki mərhələsi təsvir edilən illüstrasiyalardakı tərəflər arasındakı münaqişənin səbəb və nəticəsini adlandırın.

(1) **28.4.** Tədris zamanı hər iki illüstrasiyadan istifadə edəcəyiniz bir dərs mövzusunun başlığını adlandırın.

**29 №li tapşırıq üçün təlimat.** Aşağıda verilmiş tarixi sənədi diqqətlə oxuyun, mətni dərk edin və suallara cavab verin. Cavabları cavablar vərəqinin müvafiq yerinə yazın. Tapşırıq maksimum 18 balla qiymətləndirilir.

**Tapşırıq 29. Tarixi sənədə və suallara növbəti səhifələrdə baxın**

## Gürcüstan Respublikasının Ali Sovetinin sədri Zviad Qamsaxurdiyanın 1991-ci il 9 aprel çıxışından bir parça

Bu gün biz öz millətimizin, öz respublikamızın gələcək taleyini müzakirə etməliyik. Bilavasitə bu günkü siyasi və hüquqi problemlərə keçməzdən əvvəl qısa bir tarixi ekskursiya edəcəyəm.

1918-ci ilin mayın 26-da Gürcüstanın Milli Şurası ölkənin müstəqilliyini elan etdi və müstəqil respublika yaratdı. Hələ 1917-ci ilin noyabrında Gürcüstanın ilk Milli Qurultayı tərəfindən Milli Şura seçilmişdi. Gürcüstanın müstəqilliyini elan etdikdən sonra Milli Şura qanunverici dövlət orqanı funksiyasını üzərinə götürdü. Koalisiya hökuməti yaradıldı. 1919-cu ilin martında Milli Şuranı Təsisçilər Məclisi əvəz etdi və bu seçkilərdə seçicilərin 60 faizindən çoxu iştirak edirdi.

**Suallara keçid:** 1 2 3 4 5 6 7 8 9 10 11 12

1921-ci ilin fevralın 21-də Gürcüstanın Təsisçilər Məclisi Gürcüstan Demokratik Respublikasının Konstitusiyasını qəbul etdi.

O dövrdə Gürcüstan Demokratik Respublikası hökumətinin xarici siyasəti Almaniyaya istiqamətlənmişdi və bu da konkret şəraitin zərurəti ilə diktə olunurdu. Almanlar tezliklə Gürcüstanı tərk etdilər. 1918-ci ilin sonunda İngiltərə qoşunları Gürcüstana daxil oldular. Həm almanlar, həm də ingilislər, əlbəttə ki, öz siyasi və iqtisadi maraqları ilə hərəkət edirdilər, amma bu, zəbt mənasında bir işğal deyildi, çünki nə Almaniya, nə də İngiltərə Gürcüstanın müstəqilliyini ləğv etməmişdi.

Sovet Rusiyasının rəhbərliyi elə başdanca Gürcüstan Respublikasının müstəqilliyini mənfi qarşıladı. 1920-ci ilin başlanğıcında Qırmızı Ordu Denikin

**Mətnin davamına növbəti səhifədə baxın**

ordusunu məğlub etdi və Zaqafqaziya sərhədlərinə çatdı. Bölgənin sovetləşmə perspektivi real oldu. Aprelin sonunda Azərbaycanda Sovet hökuməti quruldu. XI ordunun rəhbərliyi dərhal Gürcüstana yürüş məsələsini gündəmə gətirdi.

Məhz bu dövrdə Gürcüstan Demokratik Respublikası hökumətinin təşəbbüsü ilə Sovet Rusiyası ilə sülh müqaviləsi bağlamaq üçün danışıqlara başlandı. Bu, Sovet hökuməti üçün də əlverişli idi, çünki həmin vaxt onlar Polşa və general Vrangelin ordularının hücumlarını dəf edirdilər.

Sovet Rusiyası ilə Gürcüstan arasında imzalanan müqavilə beynəlxalq normalara uyğun olaraq hazırlandı və qüvvəyə mindi. Sovet Rusiyası bu müqavilə ilə hər hansı bir şərt olmadan Gürcüstanın müstəqilliyini və azadlığını tanıdı.

Avropada Gürcüstan Demokratik Respublikasına qarşı ictimai rəyin müsbət yanaşması, 1920-ci ilin payızında

**Suallara keçid:** 1 2 3 4 5 6 7 8 9 10 11 12

Gürcüstana səfər edən İkinci İnternasionalın liderlərinin ziyarəti ilə daha da möhkəmləndi. Onlar bu səfərlə dünyada ilk sosial-demokrat hökumətin praktik fəaliyyətini şəxsən tanımaq məqsədi daşıyırdılar.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan dərhal sonra Qırmızı Ordu Gürcüstanı sovetləşdirməyə çalışdı. O dövrdə Sovet rəhbərliyi Gürcüstanın sovetləşdirilməsini məqsədəuyğun saymırdı, çünki bu, beynəlxalq çətinliklərə səbəb ola bilərdi. 1921-ci ilin əvvəllərində Sovet Rusiyası üçün yaranmış əlverişli beynəlxalq şəraitdə, – Polşa və Vrangelin ordularının məhv edilməsi, Böyük Britaniya ilə ticarət müqaviləsinin hazırlanması və sairə, – Gürcüstanda Sovet hakimiyyətinin qurulması planı hazırlandı.

1989-cu ildə Gürcüstan SSR Ali Soveti tərəfindən yaradılan xüsusi komissiya

**Mətnin davamına növbəti səhifədə baxın**

tamamilə haqlı olaraq belə nəticəyə gəldi ki, Gürcüstana qoşunların daxil edilməsi və bütün ərazinin işğalı hüquqi baxımdan hərbi müdaxilə (intervensiya) və işğaldır.

Gürcü xalqı heç vaxt yaranmış vəziyyətə uyğunlaşmayıb və itirilmiş dövlətçiliyin bərpası uğrunda mübarizə aparırdı.

1987-ci ilin əvvəllərindən etibarən Gürcüstanda kütləvi etiraz hərəkatı geniş vüsət aldı, bunun kulminasiyası isə 1989-cu il aprelin 4-9-da baş vermiş nümayişlər və mitinqlər oldu, bu nümayişlər imperiyanın cəzalandırıcı qüvvələri tərəfindən barbarcasına dağıdıldı.

Martın 31-də Gürcüstanda referendum keçirildi. Mərkəzi Referendum Komissiyasından alınan nəticə, Gürcüstanda keçirilən referendumun heyrətamiz nəticələrini ortaya qoyur. Xüsusilə qeyd etmək lazımdır ki, referendumda qeyri-gürcü əhalisinin iştirakı ilə bağlı bəzi detallar diqqətəlayiqdir.

**Suallara keçid:** 1 2 3 4 5 6 7 8 9 10 11 12

Bu məlumatlar düşmənlərimizin Gürcüstanda qeyri-gürcü milli azlıqlarının guya basqı və ayrı-seçkiliyə məruz qalması haqqında xaricdə yaydıqları bütün dezinformasiyaları təkzib edir. Buradan aydın olur ki, bu günkü Gürcüstan hakimiyyətinə, gürcülərlə yanaşı, qeyri-gürcülər də dəstək verirlər. Biz bu dəstəyi minnətdarlıq hissi ilə qeyd edirik və qeyri-gürcü bacı və qardaşlarımıza böyük təşəkkür edirik.

Məqsədəuyğun hesab edirik ki, Gürcüstan Respublikasının Ali Soveti dünya sivil xalqlarının qarşısında 1918-ci il mayın 26-da qəbul edilmiş müstəqillik aktına əsasən, Gürcüstanın müstəqil dövlətçiliyinin bərpasını elan etməlidir.

**Suallara növbəti səhifədə baxın**

## Suallar:

(1) **29.1.** Sənəddəki məlumatdan irəli gələrək, Milli Şuranın legitimliyinin əsası nə idi?

(1) **29.2.** 1918-ci ildə almanların Gürcüstanı tərk etməsinə nə səbəb oldu?

(1) **29.3.** Sənədə əsasən, Gürcüstan Demokratik Respublikasında xarici ölkələrin ordularının olması nə üçün işğal hesab edilməli deyil?

(1) **29.4.** Sənəddə mövcud məlumatdan irəli gələrək, 1989-cu ildə yaranmış Xüsusi Komissiya hansı məsələ üzərində işləyirdi?

**Sənəd mətninin 1-ci səhifəsinə keçid**

**Sənəd mətninin 2-ci səhifəsinə keçid**
**Sənəd mətninin 3-cü səhifəsinə keçid**

(1) **29.5.** Martın 31-də keçirilən referendum hansı məsələyə toxunurdu?

(1) **29.6.** Sənədə əsasən, martın 31-də keçirilən referendum nəticələri hansı mühüm halı aşkar etdi?

(2) **29.7.** Sənədə əsasən, mayın 26-dan sonra Milli Şuraya hansı funksiya tapşırıldı və sonralar onu hansı orqan əvəz etdi?

(2) **29.8.** Sənədə əsasən, 1920-ci ildə kim Gürcüstanı sovetləşdirməyə çalışırdı və kim buna qarşı çıxırdı?

**Sənəd mətninin 1-ci səhifəsinə keçid**

**Sənəd mətninin 2-ci səhifəsinə keçid**

**Sənəd mətninin 3-cü səhifəsinə keçid**

(2) **29.9.** Gürcüstan və Sovet Rusiyası arasında müqavilənin bağlandığı konkret tarixi adlandırın və sənədə əsasən, bu müqavilənin ən əsas bəndi nə idi?

(2) **29.10.** Sənədə əsasən, 1921-ci ildə Sovet Rusiyası üçün beynəlxalq şəraitin yaxşılığa doğru dəyişməsi konkret olaraq nədə ifadə olunurdu?

(2) **29.11.** Hansı tarix Gürcüstanda Sovet hakimiyyətinin bərqərar olduğu gün kimi hesab olunur və nə üçün?

(2) **29.12.** Sənədə əsasən, 1991-ci ildə Gürcüstan hakimiyyəti haqqında hansı dezinformasiya yayılmışdı və sizcə, bunun məqsədi nədən ibarət idi?

**Sənəd mətninin 1-ci səhifəsinə keçid**
**Sənəd mətninin 2-ci səhifəsinə keçid**
**Sənəd mətninin 3-cü səhifəsinə keçid**